**AZƏRBAYCAN RESPUBLİKASININ AUDİTORLAR PALATASI**

# ƏMR

**26 sentyabr 2025-ci il** **10-1/3-1-172/2025**

## "Abacus Audit and Consulting" MMC-nin fəaliyyətinin monitorinqinin nəticələrinə dair

Azərbaycan Respublikası Auditorlar Palatasının İctimai Nəzarət Komitəsi tərəfindən "Abacus Audit və Consulting" MMC-nin 01.01.2024-cü il tarixindən 01.04.2025-ci il tarixinədək olan dövr üzrə göstərdiyi xidmətlərin Beynəlxalq Audit Standartlarının tələblərinə uyğunluğunun yoxlanılmasının nəticəsinə dair təqdim edilmiş 2025-ci il 05 sentyabr tarixli iclas protokolunu (əlavə olunur) nəzərdən keçirərək **qərara alıram:**

1. "Abacus Audit and Consulting" MMC-nin direktor-auditoru Rüfət Rəhman oğlu Zeynalova bank olmayan kredit təşkilatı "AZPUL" MMC-nin 2024-cü il üzrə maliyyə hesabatlarının auditində Beynəlxalq Audit Standartlarının (BAS 220, BAS 500, BAS 570, BAS 700, BAS 705) tələblərinə tam riayət edilməməsi, maliyyə hesabatlarında uyğunsuzluqlara yol verilməsi, müstəqil auditor hesabatında tarix və Palata tərəfindən təyin edilən şifrənin göstərilməməsi faktlarına görə şəxsi işinə qeyd olunmaqla xəbərdarlıq elan edilsin.
2. Audit sistemində icra intizamı və daxili nəzarət şöbəsinə (Z.Almazov) tapşırılsın ki, üç gün müddətində bu sərəncamın mətninin "Abacus Audit and Consulting" MMC-yə göndərilməsini təmin etsin.
3. Auditin təşkili və hesabatlılıq idarəsinə (V.Cavadov) tapşırılsın ki, bir həftə müddətində bu sərəncamın 1-ci bəndindən irəli gələn məsələləri həll etsin.
4. Kadr hazırlığı idarəsinə (E.Hacıyeva) tapşırılsın ki, "Abacus Audit and Consulting" MMC-nin auditorlarının (mütəxəssislərinin) peşə hazırlıqlarının artırılması məqsədilə Auditorlar Palatası tərəfindən təşkil olunan müvafiq təlimlərə cəlb olunması təmin edilsin.
5. Bu sərəncamın mətni Auditorlar Palatasının internet səhifəsində yerləşdirilsin.

**Palatanın sədri** **Vahid Novruzov**

Elektron Sənəd Dövriyyəsi Sistemi
Azərbaycan Respublikasının Auditorlar Palatası
İmzalayan şəxs: Vahid Novruzov / Rəhbərlik / Sədr

**Qeyd:** <<Elektron imza və elektron sənəd haqqında>> Azərbaycan Respublikası Qanununun 3-cü maddəsinə əsasən elektron imza əl imzası ilə bərabər hüquqi qüvvəyə malikdir. Elektron imza şəxsin kağız daşıyıcı üzərindəki möhürlə təsdiq edilmiş əl imzasına bərabər tutulur.

**Sənədin elektron yüklənmə ünvanı:**
https://verify2.esd.asan.gov.az/info/esign/butRpyb0sND5Q397mS%2FKL%2BEkOKXg6sKTUCJk3CCC%2BUU%3D